# Azərbaycanda səsvermə başa çatdı

## Respublikamızda yaşayan Türkiyə vətəndaşları prezident seçkilərində öz namizədlərinə səs veriblər

Dünən Azərbaycandakı Türkiyə vətəndaşlarının ikinci tur prezident seçkilərində səsverməsi başa çatıb. Məlum olduğu kimi, mayın 14-də keçirilən seçkilərdə Ərdoğanın lideri olduğu Cümhur İttifaqı parlamentdə üstünlük əldə edib.











Lakin prezident seçkilərində namizədlərin heç biri 50 faizdən çox səs toplamayıb. Prezident seçkilərinin mayın 28-nə təyin olunmuş ikinci turunda Cümhur İttifaqından Rəcəb Tayyib Ərdoğan, Millət İttifaqından isə Kamal Kılıçdaroğlu mübarizə aparacaqlar.

Ölkəmizdə Türkiyədəki prezident seçkilərinin ikinci turu üçün səsvermə isə 20-22 may tarixlərində baş tutub. Səsvermə Türkiyənin Bakıdakı səfirliyində, eləcə də Gəncə və Naxçıvandakı diplomatik korpuslarında keçirilib.

### Seçici fəallığı müşahidə edildi

Ötən gün Türkiyə səfirliyindəki seçki məntəqəsindəki müşahidələrimiz göstərdi ki, qardaş ölkənin vətəndaşları nikbin görünürlər. Onlar mayın 28-də ən layiqli namizədin prezident seçiləcəyinə inanırlar. Bunu isə daha çox seçkilərin demokratik və şəffaf keçirilməsi ilə əlaqələndirirlər. Seçicilərin sözlərinə görə, seçkilərin şəffaflığı elə birinci turun nəticələrindən də aydın görünür.

Yeri gəlmişkən, Türkiyədə mayın 14-də keçirilən prezident seçkilərinin birinci turunda ümumilikdə 60 milyona yaxın seçici iştirak edib. Türkiyə Prezidenti, Ədalət və İnkişaf Partiyasının (AK Parti) rəhbəri, Cümhur İttifaqının namizədi Rəcəb Tayyib Ərdoğan 49,52 faiz, Cümhuriyyət Xalq Partiyasının (CHP) sədri, Millət İttifaqının namizədi Kamal Kılıçdaroğlu 44,88 faiz, Ata İttifaqının namizədi Sinan Oğan 5,17 faiz, Məmləkət Partiyasının namizədi Məhərrəm İncə isə 0,43 faiz səs toplayıblar.

Xatırladaq ki, Azərbaycanda yaşayan Türkiyə vətəndaşlarının prezident seçkilərinin birinci turu və parlament seçkiləri üçün səsverməsi mayın 5-7-də keçirilib. Seçkilərin birinci turunda ölkəmizdə 15 məntəqədə keçirilən səsvermə prosesində seçicilərin 49,42 faizi (3642 səs) Rəcəb Tayyib Ərdoğana, 41,92 faizi isə (2768 səs) Kamal Kılıçdaroğluna səs verib. Azərbaycanda səs verən Türkiyə vətəndaşlarının sayı 6 min 600 nəfərdən çox, seçici fəallığı 60 faiz olub. Ümumilikdə ölkəmizdə 11 mindən çox Türkiyə vətəndaşı səsvermə hüququna malikdir.

### Türkiyə xalqı kimi seçmək lazım olduğunu yaxşı bilir

Seçicilər elə birinci turda olduğu kimi, səs verdikləri sandıqlarda təkrar səs verirlər. Birinci turda səs verməyən vətəndaşlar ikinci turda səs vermək hüququna sahibdirlər. Onlar qeyd edirlər ki, verilən bir səsin belə seçkinin taleyini həll edə biləcəyinə inanırlar.

Seçimini edib bülleten qutusundan uzaqlaşan türk qardaşımızla həmsöhbət oluruq. Gənc seçici bildirir ki, o, əvvəl seçdiyi namizədə səs verib. "İlk turun nəticələrindən də aydın oldu ki, seçkilər tam şəffaf həyata keçirilir. Heç bir müdaxilə müşahidə edilmir. Ümid edirəm ki, Türkiyənin gələcəyi üçün ən xeyirlisi olar", - deyə Türkiyə vətəndaşı bildirib.

Digər seçici də prezident seçkiləri ilə bağlı fikirlərini bölüşdü. Dedi ki, Türkiyə xalqı kimi seçmək lazım olduğunu hər kəsdən yaxşı bilir. "Xalqımız Türkiyənin ötən müddətdə dünyada necə nüfuz qazandığının şahididir. Müəyyən iqtisadi problemlərin olması isə təbiidir. Məlumdur ki, bütün dünya iqtisadi böhranla üz-üzədir. Ona görə də daha güclü Türkiyə naminə səs verməyə gəlmişik", - deyə o bildirdi.

Həmçinin əlavə etdi ki, o, hər şeydən əvvəl ən çox səs toplayan namizədin layiqli prezident olacağına əmindir. Seçkilərin isə şəffaf keçirildiyinin şahididir. Kimin topladığı səs daha çox olarsa, deməli, Türkiyə xalqı ona inanır və onu özünə lider seçir.

Qeyd edək ki, 14 may seçkilərində ümumilikdə 1 milyon 839 min 461 türkiyəli seçici xaricdəki nümayəndəliklərdə və gömrük məntəqələrində səs verib. Seçici fəallığı 53,58 faiz təşkil edib. Mayın 28-də keçiriləcək seçkilər üçün isə Türkiyənin 73 ölkədə yerləşən 151 təmsilçisində seçki məntəqələri qurulub. Türkiyənin Mərkəzi Seçki Komissiyasının məlumatına görə, ikinci tur üçün xarici nümayəndəliklərdə mayın 20-dən başlayan səsvermə mayın 24-də yekunlaşacaq.

***Nəzrin QARDAŞXANOVA,***
***İlham Babayev (foto),***
***"Azərbaycan"***

Azərbaycan. - 2023.- 23 may.- S.11.